*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2024*
*Səh. 333-342*
https://doi.org/10.62837/2024.8.333

**XƏLİLZADƏ ŞƏBNƏM ŞAHİN**
**ADPU, Xarici Dillər Mərkəzi**
**khalilzade90@inbox.ru**
**https://orchid.org/0000-0002-5130-5723**

# SATİRANIN TƏKAMÜLÜ VƏ XX ƏSR ƏDƏBİYYATINDA İNİKASI

**Açar sözlər:** satira, ədəbi janr, satirik mətn, Qara yumor, ironiya, satirik ədəbiyyat, dünya ədəbiyyatı, faciə, satirik roman, satirik povest.
**Key words:** satire, literary genre, satirical text, black humor, irony, satirical literature, world literature, tragedy, satirical novel, satirical narrative.
**Ключевые слова:** сатира, литературный жанр, сатирический текст, черный юмор, ирония, сатирическая литература, всемирная литература, трагедия, сатирический роман, сатирическое повествование

Avropa ədəbi prosesində satiranın təkamülü yeni yaranmağa başlayan burjua cəmiyyətinin feodal qaydalarına qarşı yönəlmiş hadisələrin determenizasiyası ilə əlaqələdirilir.

Hələ İntibah dövründən başlayaraq artan reformalarda satira nəzərə çarpacaq rola malik olmuş və ədəbi janrlar arasında mühüm yer tutmuşdur. Təsadüfü deyildir ki, məhz bu dövrdə müxtəlif məzmunlu satirik əsərlər meydana gəlmişdir. Kilsəyə və onun xadimlərinə, orta əsr xristian kilsə ehkamlarına, sistem və qaydalarına qarşı, eyni zamanda bu ehkamları dəstəkləyən, qoruyan qüvvələrə; əxlaqsız keşişlərə, sxolastik düşüncəli din xadimlərinə qarşı yönəlmiş satirik mətnlər meydana gəlməyə başlamışdır.

Sosial sinif olaraq burjuaziyanın inkişafı bir ədəbi janr kimi satiranın da təkamülünə təkan vermişdir. Təmsillər, satirik novellalar, həcmli satirik romanlar öz əsasını ənənəvi xalq yaradıcılığından, xalqın gülüş mədəniyyətindən bəhrələnərək inkişaf etməyə başlamışdır.

Satira dünyanın və insanın qüsurlarını özündə əks etdirən bir sənət növüdür. Ədəbiyyatda satira konkret, fərdi qüsuru ələ salmağa yönəlmiş kiçik həcmli bir janrdır. Satira, yumor, ironiya və sarkazmın da daxil olduğu komik janrlara aiddir.

Satira heç bir vaxt, xüsusilə də hakim ideologiyaya münasibətdə alqışla qarşılanan ədəbi janr olmamışdır. Bu isə başa düşüləndir. Tənqid edilmək və gülüş hədəfinə çevrilmək bütün dövrlərdə heç kəsdə müsbət emosiyalar yaratmamışdır.

Satiranın təkamül prosesini daha aydın təsəvvür etmək üçün onun bir ədəbi janr olduğunu nəzərə alaraq əvvəlcə “Ədəbiyyat nədir?” sualı barədə qısa fikirləri nəzərdən keçirmək zəruriyyəti yaranır.

"Ədəbiyyat nədir?" – sualına ta qədim zamanlardan indiyədək müxtəlif cavablar verilmişdir : "Ədəbiyyat söz sənətidir", "Ədəbiyyat həyatın güzgüsüdür", "Ədəbiyyat – insanda bədii hiss və həyəcan oyadan bir sənətdir", "Ədəbiyyat sinfi mübarizənin kəskin silahıdır", "Ədəbiyyat həyatı obrazlarla əks etdirən incəsənətdir" və.s. Ədəbiyyatın təbiəti sözün təbiətindən və xassələrindən ayrılmazdır. **[3, 7]**

Bu təriflərin sayını artırmaq da olar. Ancaq ayrı – ayrılıqda bu tərəflərin heç biri kamil deyildi. Bunların hər biri ədəbiyyatın bir xüsusiyyətini, yaxud bir cəhətini ifadə edir. **[1, 26]**

Milliyətindən asılı olmayaraq, şəxsiyyətin formalaşması, cəmiyyət üçün faydalı bir fərdə çevrilməsi çox faktorlardan asılıdır. Onlardan biri də insanın yaşadığı zamanla, ətraf mühitlə ayaqlaşa bilməsi, cəmiyyətə uyğunlaşa bilməsi, mövcud rejimlə yola gedə bilməsidir. Bu çətin prosesdə ədəbiyyat və incəsənət insanın, hətta bütöv bir xalqın köməyinə çata bilir, prosesdə bilavasitə iştirak etməyə çalışır. Çünki ədəbi nümunələr, xüsusilə də satira cahilliyin və nadanlığın qarşısını almağı bacaran, ədalətsizliyə, haqsızlığa, naqisliyə qarşı yönəlmiş bir silahdır. Ədəbiyyat insanın kamilləşməsinə, dünyagörüşünün artırılmasına təkan verir. Ədəbi janr olaraq, satiranın gücü, təsiri isə bu sahədə digər ədəbi janrlardan daha önəmli və faydalı, eyni zamanda vacib görünür.

Misal üçün, XIX əsrin sonları XX əsrin əvvələri satira janrının təkamül prosesində Bernard Şounun satirası xüsusi əhəmiyyət kəsb etmişdir. Baxmayaraq ki, artıq bu dövrdə burjuaziyanın feodolizmlə apardığı mübarizə dövründəki kimi elə bir tarixi əhəmiyyət kəsb etmirdi, Şounun yaradıcılığında xüsusi diqqət çəkən satirik pafos əsasən rühanilərə və meşşanlığa qarşı yönəlmişdi.

XX əsrdə isə artıq ictimai şəraitin təsirilə "Satira tədricən satiranı xarakterizə edən güclü ifşa və inkar pafosunun təsirindən çıxaraq virtouz hazırcavablığın, ağlın ifadəçisinə çevrilir." **[14, 40]**

İnsan şüurlu həyatı boyu həqiqət axtarışındadır. Lakin həqiqətin də həqiqət olmasının sübuta ehtiyacı olur bəzən. Mətləb isə budur ki, ədəbiyyat məhz həqiqət axtarışı məsələsində həyatımızda böyük rola malikdir. Daha dəqiq desək, ədəbiyyat da əgər hadisələri dəqiq elmlər kimi obyektiv şəkildə, olduğu kimi işıqlandırırsa elmin təsiri altına düşür və bədiiliyindən uzaqlaşır, ardınca da maraqsız mətnə çevrilir. Axı, ədəbiyyata ilk növbədə "həyatı bədii obrazlarla əks etdirən söz sənəti" olaraq qiymət verilmişdir.

Doğrudur, insan təbiətin bir parçasıdır lakin, eyni zamanda o digər canlılardan əsas etibarilə şüuruna, mənəviyyatına görə fərqlənir. Ədəbiyyat həyatdakı hadisələri tam reallığı ilə əks etdirsə, sönük görünəcəkdir. Yazıçının təxəyyülü, bədii düşüncə tərzi nə qədər yüksəkdirsə, hadisələrə qərəzsiz, faktlara əsaslanaraq yanaşması nə qədər dolğundursa, onun qələmə aldığı əsər də bir o qədər mükəmməl , inandırıcı və təsirli alınacaqdır.

Ədəbi janrlardan biri olan satira janrı da bəzi tənqidçilərin dediyi kimi, insanı tərbiyələndirmək, islah etmək kimi vəzifələri qarşısına məqsəd qoymayıb. Sadəcə bu

məsələləri işıqlandırmaqla cəmiyyəti narahat edən nöqsanlara etirazını bildirərək tənqid edir, gülüşlə, ironiya ilə, məsxərəylə insanların daxili aləmində təlatümlər yaradır. Satira məhz bu missiyası ilə insan ruhunun paklığına, təmizlənməsinə çalışır.

Antik dövrlərdən müasir dövrümüzə qədər satirik janrın yaranması və inkişafı, ədəbi proseslərin axarında baş verən forma dəyişiklikləri ilə müşahidə olunub. Lakin buna baxmayaraq, müasir dövrdə də satiraya olan maraq klassik formalara bağlıdır. Lakin satiranın əsasını o zaman da janr müxtəlifliyindən asılı olmayaraq, indi də məhz komiklik müəyyənləşdirir. Komiklik, yumoristlik, satiriklik və ya ironiyalılıq satiranın sosial funksiyasını müəyyənləşdirir.

"Gülüşün və satiranın sosial funksiyası obyektlə mübarizə aparma sferasında komik şəkildə ifadə kimi təsbit edilir. Məhz bu fakt satiranın ironiyadan və yumordan fərqləndirən amildir. Belə ki, bu halda satira aktiv və məqsədyönlüdür." **[11, 25]**

İngilis yazıçı və dramaturqu Con Qolsuorsi "Ədəbiyyat və həyat" essesində yazır: "Biz eksperimentlərlə dolu bir dövrdə yaşayırıq; yazıçılarımız üçün asan deyil. Bizi bugünkü nəsrin poeziyaya, poeziyanın isə nəsrə dönməsi az maraqlandırır. Bizi, məncə, daha çox belə bir sual qayğılandırır: Ümumiyyətlə, mövcud şəraitdə həm şeir, həm də nəsr yazmağa dəyərmi?" Yazıçı qələmə aldığı kitabları barədə də bu fikri söyləmişdir : "Mən güman edirəm kitablarımda özünəməxsus bir dünya yaratmışam, lakin bu dünya yaşadığımız dünyaya bənzəyirmi?" **[3]**

"Dünya ədəbiyyatı" termini ilk dəfə 1827 – ci ildə dahi alman şairi Höte tərəfindən istifadə edilibdir. Texnologiyaların inkişafı, daim yenilənməsi ədəbiyyat sahəsində də böyük bəşəri sıçrayışlara səbəb olmuşdur. Ölkələrin, xalqların mədəniyyəti, ədəbiyyatı bir növ dünyanın o başından bu başına qədər yayılaraq, tərcümə olunaraq digər xalqların da mədəniyyətinə, ədəbiyyatına təsir göstərmişdir. Beləliklə tərcümələr, nəşrlər, iqtisadi və siyasi sahələrdə qarşılıqlı mübadilələr sayəsində milliyətindən asılı olmayaraq, ən yaxşı ədəbi nümunələr bəşəri dəyərlər kəsb etmiş, dünya ədəbiyyatının malına çevrilmişdir.

İki yüz il əvvəl Hötenin dilə gətirdiyi bu termin milli ədəbiyyatın nadir nümunələrini heçə endirmir, əksinə onu dünya səviyyəsinə yüksəlməsinə şərait yaratmaqla, bütün dünyanın sərvətinə çevrilməsinə təkan verir. Diqqətəlayiq, yüksək səviyyəli əsərlər yazmaq, indiki biznes dünyasında seçilərək önə çıxmaq ,xüsusilə də ədəbiyyat sahəsində dünya çapında şöhrət qazanmaq çox çətindir. Lakin nə qədər çətin olsa da, dünya ədəbiyyatı siyahısına daxil edilən əsərlər artıq tək onu yazan yazıçının təmsil etdiyi xalqa məxsus deyil, bütün bəşəriyyətə məxsus olur. Əlbəttə burada dil faktorunun hökmü danılmazdır. İngilis dili hər sahədə olduğu kimi ədəbiyyatda da hegomon dilə çevrilibdir. Bu dilə çevrilməyən ədəbi əsərlərin dünya səviyyəsində müzakirə olunması da mümkünsüzdür. Siyasi arenada , iqtisadi sahədə ingilis dili nə qədər işləkdirsə, aparıcıdırsa, mədəni və ədəbi sahədə də ingilis dilinin yeri böyükdür.

Məlum olduğu kimi, ədəbiyyatda satira Qədim Roma ədəbiyyatında yaranmağa başlamışdır. Bəzi mənbələrdə isə qeyd edilir ki, satiranın əsası Qədim Yunanıstanda qoyulsa da, o, satiranın iki növünə öz adlarını vermiş və onun “ataları” hesab edilən Horatsi və Yuvenalın vətəni Qədim Romada inkişaf etmişdir. Tarixi mənbələr göstərir ki, Roma satirası Horatsinin, Persiusun, Lutsiliyanın, xüsusən də Yuvenalın əsərlərində özünü göstərir. Satirik ədəbiyyat ümumiyyətlə, Horatian, Yuvenalin və Mineppe kimi təsnif edilə bilər. İlk dəfə romalı natiq Kvintilian satira janrını bir ədəbi janr kimi təqdim edən, xarakterizə edən müəllif kimi qəbul edilir. Bualo “Poetik sənət” traktatında yazır ki, satira janrı cəmiyyət üçün qəsidədən daha çox lazımdır. **[10, 24]**

Orta əsrlərdə satira nümunələri əsasən, şifahi xalq ədəbiyyatında geniş yayılmışdı. Xalq arasında geniş yayılmış lətifələr, satirik şeirlər satira janrının əhəmiyyətini daha da artırmışdır.

Misal üçün, satira tarixində İtaliya xalq yaradıcılığı olan “maskaların komediyası” mühüm rol oynamışdır.

İntibah dövrünün ideologiyasına təsir göstərən, onu tənqid edən müəlliflər və onların əsərləri indi də öz əhəmiyyətini itirməmişdir. F. Rabelnin “Qarqantyuya və Pantaqryuel” əsərində qrotesk, hiperbola gülüş obrazları yaratmışdır. Rablenin ilk ədəbi yaradıcılığı anatomiyaya,arxitekturaya və mədəni məsələlərə həsr edilmişdir. Yaradıcılığının zirvəsi hesab edilən “Qarqantyuya və Pantaqryuel” romanı 1552- ci ildə Alkofribas Nazye təxəllüsü ilə işıq üzü görübdür. Romanda satqın hakimlər, axmaq filosoflar, tamahkar, həris keşişlər ironiya ilə ifşa edilir, hətta karolun özü gülüş hədəfinə çevrilir, lağa qoyulur. Əsər Fransa inkviziyasının xoşuna gəlməmişdir və Rable roman üzərində işini davam etdirmək üçün ölkəni tərk etmək məcburiyyətində qalmışdır. Onun adı çəkilən əsəri bu gün də öz aktuallığını itirməmişdir və müəllifə dünya şöhrəti qazandırmışdır. Rablenin bu əsərini haqlı olaraq, Orta əsrlərin satirik ensiklopediyası adlandırırlar.

Qərbin estetik dünyagörüşünün formalaşmasında satiranın müxtəlif istiqamətlərinin yaranması mühüm rol oynamışdır. Bunlardan biri də “bernesk” adlanır və italiyalı satirik şair Berni Françeskonun adı ilə bağlıdır. Bu satirik istiqamətin əsas prinsipləri üçün xarakterik olan mətnin karikatura manerasında verilməsidir. Bunun isə əsasını paradoks və gözlənilməz müqayisələr təşkil edir.

Klassik ingilis satirasında isə əsas və vacib forma olaraq “açıq, birbaşa” və “formal” satira manerası hesab edilir. Burada oxucuya və dinləyiciyə satirik irad və mülahizələrlə müraciət edilir.

İspan yazıçısı M.D.Servantesin “Don Kixot” romanı həmin dövrlərin qovşağında dünya ədəbiyyatına möhtəşəm satirik roman kimi daxil olur və işıq üzü gördüyü gündən dünyanın komik panaramının təsviri baxımından bütün dövrlərin ən dahiyanə satirik janrda qələmə alınmış əsəri hesab edilir.

İngilis ədəbiyyatında satiranı öz yaradıcılığında D.Q.Bayron inkişaf etdirir. Onun yaradıcılığında satiranın romantik ironiya ilə sintezi özünü büruzə verir.

Bununla belə, onun da yaradıcılığında satirik motivlər yalanın ifşasına, aristokratiyanın, dindarların riyakarlığına yönəlir, eyni zamanda, burjua cəmiyyətinin dardüşüncəliyi də satira atəşinə tutulur.

Avropa ədəbiyyatında satira janrı isə ən çox U.Tekkerin, H.Hayne, A.Fransisko, B.Şounun adları ilə bağlıdır. Karl Kraus Conatan Sviftdən sonra ilk böyük Avropa satirikçisi hesab edilir. **[8, 254]**

Avropa ədəbiyyatında satirik janrın köməyilə A.Hitler, N.S.Xruşşov, L.İ.Brejnyev kimi hərbi və siyasi xadimlərin satirik karikaturaları öz əksini tapmağa başlayır. Həmin dövrdən başlayaraq siyasi satira elementləri genişlənir. **[17]**

Rus ədəbiyyatında satiranın əsasını qoyanlar A.Kantamir, D.Fonvizin, İ.A.Krılov, A.P. Sumarokov hesab edilir. Mineppe satirasına misal olaraq, F.M.Dostoyevskinin "Bobok", M.A.Bulqakovun "Master və Marqarita", İ.İlf və E.Petrovun "12 stul" əsərlərinin adlarını qeyd etmək olar.

Satira bütün zamanlarda, bütün quruluşlarda vacib və aktual janr olaraq daim inkişaf edərək diqqət mərkəzində olmuşdur. Marksist inqilabçı, Sovet siyasi xadimi Lev Trotski Sovet quruluşunun ilk illərində əbəs yerə deməmişdir: "Heç şübhə etmirəm ki, bizim teatra mütləq şəkildə son dərəcə yeni inqilabi məişət repetuarı gərəkdir, ən başlıcası Sovet komediyası, sadəcə sovet adətinə gülən və hiddətlənən komediya." **[12, 184]**

XX əsrin Amerika satirik nəsri M.Tvenin, F.Dannın, A.Birsin adları ilə bağlıdır. I və II Dünya müharibələri arasında S.Lyuis, R.Lardner, N.Uest sonrakı dövrlərdə isə L.Xyus, D.Çiver, A.Buxvald Amerika satirik janrın davamçıları hesab edilir. ABŞ-da eyni dövrün bir çox sosial tənqidçiləri, məsələn, D.Parke və H.L.Menken satiradan əsas silah kimi istifadə edirdilər. Satirik fantastika janrda tanınmış yazıçılardan R.Bredberinin, K.Vonnequtun və digər yazıçıların adları mühüm rol oynamışdır. "Baş küçə", "Bebbir" , "Bizdə bu mümkün deyil" kimi satirik hekayələri və romanları ilə tanınan yazıçı Sinkler Luis əsərlərində Amerika dəyərlərini araşdırır və satirikləşdirirdi.

Satiranın ABŞ-da təkamül prosesindən danışarkən "qara yumor" terminin də münasibət bildirmək gərəkdir. Satira və yumorun fərqli cəhətləri olsa da, dünyanın bir çox ölkələrin yazıçılarının "qara yumor"a aid edilən əsərləri meydana gəlmişdir. Bir termin kimi "qara yumor" 30-cu illərdə Fransada meydana gəlsə də, termin fəlsəfi məna yükünə malik olmaqla yanaşı, bədii-nəzəri cəhətdən də ədəbiyyatşünaslıqda və ədəbi mətnlərdə insan azadlıqlarının problemlərini üzə çıxarmaq öhdəliyi kimi meydana çıxmışdır. Ötən əsrin 50-70-ci illərində Amerika ədəbiyyatında "qara yumor"a aid edilən bir çox əsərlər işıq üzü görmüşdür. Bu termin amerikalı ədəbi tənqidçi Bryus Fridmanın tərtib etdiyi antologiyadan sonra daha da məhşurlaşmışdır.

Artıq janrından asılı olmayaraq, poeziyada, nəsr əsərlərində də satiranın elementləri, motivləri olmadan keçinmək mümkün deyil. Çünki müasir ədəbiyyatda artıq satira və yumor hər bir mətnin ayrılmaz bir hissəsinə çevrilmişdir. Çünki hərdən

ironiya ilə söylənən fikirlər mətnin maraqlı olmasına, oxunaqlığına, yadda qalmasına müsbət təsir göstərir. İroniya ilə zəngin əsərlər daha maraqla qarşılanır, cəlbedici olur və uzun müdddət yaddaşlarda qalır.

Çağdaş dünyamızda ədəbi əsərlərin əksəriyyətində siyasi xadimlərin məsxərə obyektinə çevrilməsi, korrupsiyanın ifşa edilməsi, təkcə oxucuların gülüb keçməsi üçün deyil, həm də oxucunu düşünməyə, ədəbi mətnlərdən alınan informasiyaları təhlil etməyə vadar edir. Belə əsərlər ümumilikdə elə atmosfer yaradır ki, oxucu ilə müəllif arasında sanki problemlərin çözülməsi istiqamətində qiyabi və ya əyani şəkildə dialoq yaranır.

Satiradan ədəbi və ictimai mübarizələrdə geniş istifadə edilməsi, onun ciddi sosial məzmun daşımasına səbəb olmuşdur. XIX – XX əsrlərdə Azərbaycan maariçiləri feodal dərəbəyliyini, cəhaləti, elm və təhsil düşmənlərini satirik əsərlər – şeir, felyeton, hekayə və.s formada tənqid etmişlər. Ona görə də XIX əsr Azərbaycan satirik ədəbiyyatının qızıl dövrü sayılır. **[15]** Azərbaycan ədəbiyyatında N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundov, C. Məmmədquluzadə, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, Mir Cəlal, Sabit Rəhman, B.Vahabzadə və digər şair və yazıçılar öz yaradıcılıqlarında satira janrından, onun elementlərindən əsərlərində geniş istifadə etmişlər. Q.B.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir satirik poeziyanın böyük ustaları olmuşlar. **[15]**

M.Füzuli hələ "Bəngü – badə" alleqorik əsərində dünyanı fəth etmək, ona sahiblənmək istəyən fatehlərə bütün bunların boş və mənasız, əbəs bir iş olduğunu çatdırır, belə mənasız savaşlara qarşı ironiyasını ortaya qoyur. Səfəvi tarixinə, Çaldıran savaşına, baş verən münaqişələrə və bu tarixi hadisənin iştirakçılarına alleqorik üslubda münasibət bildirir. Şair burdakı tarixi şəxsiyyətlərin hər birinə məcazi ad verməklə onların alleqorik obrazlarını yaratmışdır.

M.F.Axundov və C.Məmmədquluzadə satirası Azərbaycanın keçmişində parlaq mədəniyyət olduğunu sübuta yetirdi. Satira ilham pərisi qanadlarında yerə sinirsə də, həmin yer büsbütün mədəniyyət daşlıqlarından ibarət olur. Yalnız satiraya dözümlü cəmiyyət demokratiya yolu ilə gedə bilir. **[2, 289]**

Satira hər bir cəmiyyətin güzgüsüdür. Cəmiyyətdəki əksiklikləri, etiraz və narazılıqları göstərmək, tənqid hədəfinə çevirməklə acı gülüş yaratmaq üçün satira bir bədii vasitə kimi çox dəyərlidir və çox spektirlidir, rəngarəngdir. Satiranın palitrasında cəmiyyəti düşündürən rənglər sonsuzdur və hər bir rəngin sonsuz çalarları mövcuddur. Bu janrda əsər yazmaq olduqca çətindir. Əsl sənətkar məhz bu sözün qüdrətilə bu rəngləri, çalarları öz üslubu və dəstixəttiylə çatdıra biləndə xalq həmin güzgüdə özünü görüb tanıyır, dərk edir. Satirik janrda yazan şair və ya yazıçı həmin güzgüdə hər bir kəsin əsl simasını, xarakterini göstərməyi bacarmalıdır. Bu isə ümumilikdə cəmiyyətin hansı durumda olmasını, hansı səviyyənin,əxlaqın sahibi olmasını, hansı eybəcərliklərdən yaxa qurtara bilməsinin göstəricisidir.

Cəlil Məmmədquluzadə banisi və redaktoru olduğu "Molla Nəsrəddin" satirik jurnalının yaranması barədə vaxtilə belə demişdir : "Molla Nəsrəddini təbiət özü

yaratdı, zəmanə özü yaratdı.” Doğrudan da ““Molla Nəsrəddin”in mütərəqqi ideya istiqaməti, realist ədəbi yolu kimi , cazibədar satira üslubu, rəngarəng, məzəli rəsmləri, ağıllı dil siyasəti də dövrün qabaqcıl meyilləri ilə, konkret tarixi – inqilabi amillərlə şərtlənmişdi.” **[4, 4]** Jurnal qısa bir zamanda Azərbaycan satirik ədəbiyyatında öz sözünü deyən, böyük oxucu kütləsi qazanan jurnala çevrilməklə, satirik ədəbiyyatın daha da inkişaf etməsində müstəsna rol oynamışdır və bununla da satirik jurnalistikanın əsasını qoumuşdur.

Lirik şeir kimi ədəbiyyata daxil olan satira janrı öz təkamülü dövründə müxtəlif janrlara ayrılmışdır və bu janrların hər birində dəyərli və məzmunlu əsərlər yaranmışdır. Satirik roman, satirik povest, satirik nağıl, təmsil, felyeton, pamflet, epiqramma, anektod, karikatura satira janrının çoxyönümlü bir janr olduğunu təsdiq edir.

XX əsrin əvvəlində başlayan hadisələr insanlarda optimizm hisslərinə elə də müsbət təsirlər göstərmədi. Cəmiyyətdə sosial xaos dərinləşdi, insanlar bir boşluq hiss etməyə başladılar. İncəsənətdə bu səbəbdən bəzi məsələlərdə estetik konsepsiya baxımından müəyyən baxışların yaranmasına zərurət yarandı. Modernist cərəyanlar yaranmağa başladı. Ədəbiyyatın satirik janrı ilə məşğul olan O.Xaksli, C.Oruell, İ.Bo, M.Spark və s. kimi ədiblər yadlaşan və absurdlaşan dünyanı təsvir etmək üçün “qara yumor”a, alleqoriyaya müraciət etməyə başladılar.

Məsələn, Oldos Xakslin utopik romanı sayılan “Gözəl yeni dünya” romanında Avropanın həyəcanlı I Dünya müharibəsindən sonrakı əhval – ruhiyyəsi təsvir edilir və “mexaniki sivilizasiyaya” etiraz bildirilir.

C.Oruellin satirik – antiutopik “Heyvanıstan” və “1984” əsərlərində totalitar rejimlərə, despotik idarəçiliyə qarşı mübarizə, bu üsul – idarənin tənqidi maraqlı bir dildə qələmə alınmışdır.

Göründüyü kimi, satira öz inkişafı, təkamülü boyunca cəmiyyətdə baş verən neqativ hadisələrə özünəməxsus tərzdə, ifşaedici, xüsusi yumoristik qanunlar çərçivəsində baxmışdır. Bu ifşaedici prosesdə klassik modellər bir norma kimi öz əhəmiyyətini saxlamaqla yanaşı, satiranın şərti olaraq əsasən iki vektor üzrə təkamülü qeyd olunmuşdur: birincisi bütün sosial – siyasi sistemin inkar edilməsi, ikincisi cəmiyyətdəki ayrı – ayrı neqativ hadisələrin üzə çıxarılması. Son nəticədə satiranın, satirik obrazların yaranması üçün istifadə edilən müxtəlif növ “xammal”ı və müəllifin bunlara münasibəti üzə çıxır. Beləliklə, cəmiyyətin bütün cəhətlərini və xüsusiyyətlərini determinzasiya edən satirik mətn yaranır.

## Xülasə

Satira bütün zamanlarda, bütün quruluşlarda vacib və aktual ədəbi janr olaraq, daim inkişaf edərək diqqət mərkəzində olmuşdur. Tənqid edilmək və gülüş hədəfinə çevrilmək bütün dövrlərdə heç kəsdə müsbət emosiyalar yaratmamışdır. İdeologiyaya münasibətdə satira heç vaxt müsbət qarşılanan ədəbi janr olmamışdır.

Satirik janr hər hansı bir quruluşda, cəmiyyətdə qadağaların, zorakılıqların, insan haqlarının tapdalandığı bir zamanda daha da aktuallaşmağa başlamışdır.

Bəzi tənqidçilərin dediyi kimi, satira insanı tərbiyələndirmək, islah etmək kimi vəzifələri qarşısına məqsəd qoymayıb. Satira cəmiyyəti narahat edən nöqsanlara etirazını bildirərək tənqid edir. Yumoristlik, satriklik və ya ironiyalılıq satiranın sosial funksiyasını müəyyənləşdirir.

Hər bir ədəbi janr kimi satira janrı da öz başlanğıcından üzü bəri təkamül yolu keçmişdir. İctimai fikirlər, ideologiyalar, insanların yaşayış tərzi dəyişdikcə, bu janr da müəyyən dəyişikliklərə məruz qalmışdır.

Ədəbiyyatda satira Qədim Roma ədəbiyyatında yaranmışdır. Orta əsrlərdə satira nümunələri əsasən şifahi xalq ədəbiyyatında geniş yayılmışdır. Qərbin estetik dünyagörüşünün formalaşmasında satiranın müxtəlif istiqamətlərinin yaranması mühüm rol oynamışdır. Klassik ingilis satirasında isə əsas və vacib forma olaraq, “açıq, birbaşa” və “formal” satira manerası hesab edilir. XX əsrin Amerika satirik nəsri M.Tvenin, F. Dannın, A.Birsin adları ilə bağlıdır. Satiranın ABŞ-da təkamül prosesindən danışarkən “qara yumor” terminine toxunmaq lazımdır.

Beləliklə, artıq janrından asılı olmayaraq, poeziyada, nəsr əsərlərində də satiranın elementləri olmadan keçinmək mümükün deyil. Çünki müasir ədəbiyyatda artıq satira və yumor hər bir mətnin ayrılmaz hissəsinə çevrilmişdir.

**KHALILZADE SHABNAM**

## TH EVOLUTION OF SATIRE AND ITS REFLECTION IN THE 20TH CENTURY LITERATURE

## SUMMARY

Satire has always been in the center of attention as an important and relevant literary genre at all times and in all systems. Regarding to ideology, satire has never been a positive literary genre. The satirical genre has become more relevant at a time when prohibitions, violence and human rights are being trampled in any structure and society.As some critics say, satire does not aim to educate and reform people. Satire criticizes society by expressing its objection to the shortcomings that disturb it. Humor, satire or irony determine the social function of satire. Like every literary genre, the genre of satire has evolved since its beginning. As public opinions, ideologies, and people's lifestyles have changed, this genre has also undergone certain changes.Satire in literature originated in ancient Roman literature. In the Middle Ages, examples of satire were widespread mainly in oral folk literature. The emergence of various directions of satire played an important role in the formation of the aesthetic outlook of the West. In classic English satire, "open, direct" and "formal" manner of satire is considered as the main and important form. American satirical prose of the 20th century is associated with the names of M. Twain, F. Dunn, and A. Beers. When talking about the evolution of satire in the United States, the term "black humor" should be mentioned.Thus, regardless of the genre, it is

impossible to manage without elements of satire in poetry and prose works. Because in modern literature, satire and humor have become an integral part of every text.

**ШАБНАМ ХАЛИЛЗАДЕ**

## ЭВОЛЮЦИЯ САТИРЫ И ЕЕ ОТРАЖЕНИЕ В ЛИТЕРАТУРЕ XX ВЕКА

## РЕЗЮМЕ

Сатира всегда была в центре внимания как важный и актуальный литературный жанр во все времена и во всех контекстах. Критика и смех никогда ни у кого не вызывали положительных эмоций. В идеологическом отношении сатира никогда не была положительным литературным жанром. Сатирический жанр стал более актуален в то время, когда в любой структуре и обществе попираются запреты, насилие и права человека.

Как говорят некоторые критики, сатира не преследует цели просвещать и реформировать людей. Сатира критикует общество, выражая недовольство беспокоящими его недостатками. Юмор, сатира или ирония определяют социальную функцию сатиры.

Как и любой литературный жанр, жанр сатиры с момента своего возникновения развивался. Поскольку общественное мнение, идеология и образ жизни людей изменились, этот жанр также претерпел определенные изменения.

Сатира в литературе зародилась в древнеримской литературе. В средние века образцы сатиры были широко распространены преимущественно в устной народной литературе. Появление различных направлений сатиры сыграло важную роль в формировании эстетического мировоззрения Запада. В классической английской сатире основной и важной формой считается «открытая, непосредственная» и «формальная» манера сатиры. Американская сатирическая проза 20 в. связана с именами М. Твена, Ф. Данна, А. Бирса. Говоря об эволюции сатиры в США, следует упомянуть термин «черный юмор».

Таким образом, независимо от жанра, в поэтических и прозаических произведениях невозможно обойтись без элементов сатиры. Потому что в современной литературе сатира и юмор стали неотъемлемой частью каждого текста.

## Ədəbiyyat siyahısı

1.Cəfər Xəndan, "Ədəbiyyat nəzəriyyəsi", Bakı, 1958, 287 səh
2.Rafiq Tağı "Seçilmiş esselər" , IV cild, Bakı, 2021, 352 səh
3.Rəhim Əliyev, " Ədəbiyyat nəzəriyyəsi", Bakı – Mütərcim, 2008, 360 səh

4.“Molla Nəsrəddin” jurnalı toplusu, I cild, 1988, Əziz Mirəhmədovun yazdığı ön söz, 720 səh
5.Vladimir Nabokov, “Rus ədəbiyyatından mühazirələr”, Bakı, 2017, 432 səh
6.Applebee, Arthur N., Ed. The Language of Literature: British Literature. Evanston, IL: McDougal Littell, 1997 , 968 p
7.Gavkhar Nayimova and Lixodziyevskiy A.S.The Development Of Satire Genre In Literature Of The First Half Of The XX Century 5 Issue 4, April - 2021, Pages: 166-168
8.Knight, Charles A. (2004) *Literature of Satire, Cambridge University Press,* 340 p.
9.Müller, Rolf Arnold (1973). Komik und Satire (in German). Zürich: Juris-Verlag. The University of California (original from), 93 p.
10.Patricia Green Houston Teacher İnstitute, The Golden Age of Satire: Alexander Pope and Jonathan Swift, 72 p
11.Хренов Н.А. «Зрелица в эпоху восстания масс», Москва, 2006, 646 стр
12.Л. Тротски, «Литература и ревалуция», Москва, 1991, 400 стр
13.Серия: «Гуманитарные науки» № 3, март 2018, 174 стр
14.М.В.Покотыло «Феноменалогия сатиры»: Онтологический статус и естетическая практика и монография, Ростов на Дону, 2016, 156 стр
15.https://en.wikipedia.org/wiki/Satire
16.https:// omiliya.org/article/dzhon – golsuorsi
17.https: //spadilo.ru/satiricheskij-zhanr

**Rəyçi: f.ü.f.d., baş müəllim Məsmə İsmayılova**